XALQ QƏZETİ 13 dekabr 2017-ci il, çərşənbə

# "Sən elə bir zirvəsən!.."





❒ ***Binəqədi Rayon İcra Hakimiyyəti, YAP rayon təşkilatı, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə ümummili lider Heydər Əliyevin anım gününə həsr edilən "Sən elə bir zirvəsən!.." adlı tədbir keçirilib.***

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin inzibati binasında reallaşan mərasimdə qonaqlar əvvəlcə ümummilli liderin sərəncamlarından ibarət sənəd nümunələri və dahi öndərin Milli Kitabxanaya hədiyyə etdiyi dəyərli şəxsi kitablarla tanış olublar. Daha sonra ümummilli liderin büstü önünə gül dəstələri düzüb, əziz xatirəsini yad ediblər.

Tədbiri Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin direktor səlahiyyətlərini icra edən Elmira Ələkbərova açaraq Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi ilk aylarda arxiv idarəsinin yaradılması ilə bağlı sərəncam imzalamasını ümummili liderin xalqına və onun tarixinə verdiyi qiymətin bariz nümünəsi olduğunu bildirib.

Milli Kitabxananın direktoru Kərim Tahirov çıxışında dahi öndərin fenomen şəxsiyyət olaraq ictimai-siyasi həyatın bütün sahələrinə diqqətlə yanaşdığını xatırladıb. O, ulu öndərin Milli Kitabxanaya tez-tez gəlməsindən, kitabxana işçilərinə göstərdiyi diqqət və qayğıdan geniş söhbət açıb.

Rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva Heydər Əliyevin hər bir azərbaycanlının qəlbində yaşadığını və dahi öndərin ideyalarının ölməzliyini bildirib. Xatirələrdə silinməz və dərin məhəbbətlə möhürlənən bu böyük şəxsiyyətin həyatını, fəaliyyətini öyrənmək, öyrətmək və əbədiləşdirmək hər birimizin üzərinə düşən ən mühim məsələ olduğunu diqqətə çatdıran A. Əliyeva Heydər Əliyev dühasının hər zaman xalqımıza güc, qüvvə bəxş ediyini söyləyib.

Çıxışlar başa çatdıqdan sonra anım mərasimi bədii hissə ilə davam etdirilib. Ümummili liderin sevdiyi musiqilər səslənib, dahi şəxsiyyətə həsr edilən şeir və musiqi kompozisiyaları hərarətlə qarşılanıb.

***M. MEHDİYEV,***
***"Xalq qəzeti"***